# Avrasiya məkanında mühüm nəqliyyat və logistika mərkəzinə çevrilir

**❒ Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri çərçivəsində nəqliyyat, tranzit və logistika məsələləri üzrə Birgə Komissiyanın yaradılması Xəzər dənizində qarşılıqlı münasibətlərin arxitekturasının möhkəm bünövrəsini yaratmaqla bərabər, həm də iki ölkə arasında ixrac-idxal yüklərinin daşınması məsələlərinin operativ həllinə müsbət təsir göstərəcək. Bu, eyni zamanda, Əfqanıstan–Türkmənistan–Azərbaycan–Gürcüstan–Türkiyə nəqliyyat dəhlizinin, eləcə də Transxəzər beynəlxalq marşrutu çərçivəsindəki digər layihələrin reallaşdırılmasını sürətləndirəcək.**

Burada bir məqama da toxunmaq istərdik. Dünyada açıq dənizlərə çıxışı olmayan ölkələrdə nəqliyyat dəhlizinin reallaşdırılmasında bir sıra çətinliklər yaşanılır. Respublikamız isə bu problemi aradan qaldırmaqla əksər dövlətlərin qarşılaşdıqları bir stereotipə son qoyub, təkcə regionun deyil, Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilməsi imkanı əldə edib. Yuxarıda adıçəkilən Birgə Komissiyasının fəaliyyətində də bu amil nəzərə alınıb. Əlbəttə, sözügedən məsələdə dövlət başçımızın məqsədyönlü iqtisadi siyasəti önəmli rol oynayıb.

Prezident İlham Əliyev bu il oktyabrın 25-də paytaxtımızda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunda söylədiyi nitqində bununla bağlı deyib: “Azərbaycanın coğrafi vəziyyəti əlverişlidir, ancaq müasir infrastruktur olmadan bu coğrafi vəziyyətin heç bir əhəmiyyəti yoxdur. Digər tərəfdən, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Ona görə bizim bütün nəqliyyat, enerji, kommunikasiya xətlərimiz başqa ölkələrin ərazisindən keçməlidir. Əlbəttə, buna nail olmaq üçün mütləq, ilk növbədə, qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə çox sıx dostluq münasibətləri olmalıdır və bunlar da var”.

Azərbaycanın uğurlu beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq forması əsasında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Cənub Qaz Dəhlizinin seqmentləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri reallaşdırılıb. Yeri gəlmişkən, onlarca ölkəni bir-birinə bağlayan Şimal-Cənub,




Şərq-Qərb nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən avtomobil və dəmir yolu hissələri Ələt yaşayış sahəsində kəsişir. Bu ərazidə inşa edilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər hövzəsinin ən böyük ticarət limanıdır. Kompleksin tikintisi bura su magistrallarını da əlavə edib. Məhz bütün bunlar – avtomobil, dəmir və su yollarının birləşməsi Azərbaycanın mühüm nəqliyyat qovşağına və yeni logistik məkana çevrilməsinə geniş imkan yaradıb.

Limanın təməli 2010-cu ildə dövlət başçısının iştirakı ilə qoyulub, 2014-cü ildə birinci mərhələyə daxil olan liman qurğularından biri – iki körpüdən ibarət bərə terminalı istifadəyə verilib. Bu ilin əvvəlində isə liman kompleksinin Ro-Ro terminalının açılışı olub. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri də təkcə regional deyil, həmçinin beynəlxalq miqyaslı infrastrukturdur. Məsələn, Şimal-Cənub dəhlizi İranı Rusiya ilə birləşdirməklə bərabər, Hindistanı da Avropa ilə bağlayır. Xatırladaq ki, Azərbaycan bu nəqliyyat dəhlizinin reallaşmasını praktik olaraq həyata keçirən ölkələrdən biridir.

Yuxarıda sadalananlarla yanaşı, logistik mərkəzlərin yaradılması, qədim İpək yolunun bərpası, yükdaşımalarda elektron xidmətlərin tətbiqi, prosedur qaydalarının sadələşdirilməsi nəticə etibarilə ölkəmizin strateji nəqliyyat dəhlizi mərkəzinə çevrildiyindən xəbər verir. Azərbaycanda dəmir yollarının inkişafına, müasirləşməsinə diqqətin artırılması nəticəsində bu sahə də regionun mühüm və əhəmiyyətli nəqliyyat-logistika holdinqinə çevrilərək dünyanın inkişaf etmiş ölkələrinin dəmir yolları sırasında öz layiqli yerini tutacaq.

Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi də getdikcə artır. Bu, Şərqlə-Qərbin qovşağında yerləşən, unikal coğrafi geosiyasi şəraitə malik olan respublikamızın hazırda dünya təsərrüfatının nəqliyyat sektorunda baş verən proseslərdən kənarda qalmaması ilə bağlıdır. Başqa sözlə, Azərbaycanı regionun ticarət mərkəzinə çevirmək məqsədilə son illərdə ölkəmizin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişafı, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və tranzit potensialının daha da artırılması üçün konkret hədəflərə istiqamətlənən kompleks tədbirlərin reallaşdırılmasının nəticəsidir.

Tikintisində və istismara verilməsində Azərbaycanın liderlik etdiyi və aparıcı qüvvə olduğu Bakı-Tbilisi-Qars dəmir yolu xətti isə qədim İpək yolunun polad magistrallar üzərində bərpası deməkdir. Bu magistral xətt Mərkəzi Asiya ölkələri olan Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, eləcə də Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışının asanlaşdırılmasında mühüm rol oynayır. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yolu ilə hər iki istiqamətdə daşınması onların həcmini dəfələrlə artıracaq. Daşımalara sərf edilən vaxt da nəzərəçarpacaq dərəcədə azalacaq. Yaxın gələcəkdə həm Azərbaycan, həm də Gürcüstan və Türkiyə tranzit daşımalarından yüksək gəlir əldə edəcəklər.

Respublikamızın beynəlxalq nəqliyyat dəhlizi kimi tanınmasında önəmli rol oynayan digər məqamlara da diqqət yetirək. Belə ki, son 15 ildə ölkəmizdə geniş, müasir nəqliyyat infrastrukturu yaradılıb. Azərbaycanı qonşu ölkələrlə bağlayan və respublikanın özünün əsas hissələrini əhatə edən dəmir yolları şəbəkəsi qurulub. Sözügedən müddətdə ümumi uzunluğu 15 min kilometrdən çox avtomobil yolları çəkilib, yaxud əsaslı təmir edilib. Azərbaycanın Xəzər hövzəsində 200-dən çox gəmisi olan ən böyük ticarət donanması da ölkəmizin beynəlxalq nəqliyyat dəhlizi kimi tanınmasını şərtləndirib.

Hazırda respublikamızda 7 aeroport fəaliyyət göstərir. Xatırladaq ki, regionların sosial-iqtisadi inkişafına yönəldilən, 2004-2008-ci illəri əhatə edən I Dövlət Proqramı ərəfəsində Azərbaycanın tək bir beynəlxalq aeroportu var idi. Bu gün isə Bakı Beynəlxalq Aeroportu ilə yanaşı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ və Zaqatalada da beynəlxalq aeroport fəaliyyət göstərir.

Azərbaycanda gələn il nəqliyyat dəhlizinin daha da inkişaf etdirilməsi məqsədilə qarşıya mühüm vəzifələr qoyulub. Ölkəmizin logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılması, habelə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi nəticəsində artan yük həcmlərinin qarşılanması üçün ardıcıl tədbirlərin görülməsi nəzərdə tutulub. Bundan başqa, yaxın illərdə Şimal-Cənub nəqliyyat dəhlizinin yerüstü marşrutunun mərkəzində yerləşən və əsas birləşdirici rol oynayan Astara (Azərbaycan)-Astara (İran)-Rəşt-Qəzvin dəmir yolu xəttinin istifadəyə verilməsi də yüklərin və sərnişinlərin Mərkəzi və Şimali Avropadan Azərbaycanın ərazisindən keçməklə Fars körfəzi, Hind okeanı regionlarına tez bir zamanda çatdırılmasını təmin edəcək. Həmçinin respublikamızın əlverişli məkanlarında azad iqtisadi zonaların, yaxın gələcəkdə isə Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının yaradılması məsələlərinə baxılacaq.

*Vaqif BAYRAMOV, “Xalq qəzeti”*

